# Makron hökumətinin sərsəm qərarlarının nəticəsi

## Fransa Azərbaycanla münasibətləri pozmaq üçün bütün gedişləri edir



**Fransa aprelin 16-da Azərbaycandakı səfirini geri çağırıb. Məlumata görə, Ann Buayon məsləhətləşmələr aparmaq məqsədilə Parisə çağırılıb. Elə həmin gün səfiri qəbul edən Fransa Prezidenti Emmanuel Makron Azərbaycanın hərəkətləri ilə bağlı narahatlığını ifadə edib və Azərbaycanla Ermənistan arasındakı münasibətlə əlaqədar "sülhpərvər" fikirlərini bildirib.**

Son faktlar da göstərir ki, Fransa Azərbaycanla münasibətləri pozmaq üçün bütün gedişləri edir. Görünən isə odur ki, Makron hakimiyyətinin xarici siyasəti bu ölkəni daha da uçuruma aparır. Hər dəfə məğlubiyyətə uğrayan Makron isə yeni yollar axtarışına çıxır.

Fransanın Azərbaycandakı səfirinin məsləhətləşmələr üçün geri çağırılmasına münasibət bildirən Milli Məclisin deputatı Aydın Hüseynov deyib ki, bu ölkənin Azərbaycana qarşı riyakar və qərəzli münasibəti Makron hökuməti üçün sanki vərdişə çevrilib. Azərbaycan beynəlxalq prinsiplərə sadiqliyini nümayiş etdirərək Fransaya qarşı xoşməramlı davranış göstərsə də, bunun daha da əksini görür.

Deputat bildirib ki, Fransa son aylardakı bütün addımları ilə ermənipərəsət mövqeyini daha qabarıq göstərir, həm də dövlət etikasını, diplomatik-siyasi əxlaq normalarını tapdalamaqla məşğuldur.

A.Hüseynovun fikrincə, bu addım diplomatiya tarixində Parisin növbəti rüsvayçılığı və Makron hökumətinin sərsəm siyasi qərarlarının nəticəsidir: "Azərbaycana qarşı qərəzli siyasətini davam etdirən Makron bu addımı ilə iki ölkə arasında əlaqələrin daha ciddi zədələnməsinə rəvac verir. Fransanın son illərdə həyata keçirdiyi xarici siyasət kursu bu ölkənin beynəlxalq münasibətlər sistemində nüfuzunu xeyli dərəcədə zəiflədib. Parisin xarici siyasət strategiyası bir çox hallarda dünyada və regionda baş verən proseslərin yaratdığı reallıqlardan kənara çıxır, xüsusilə də Cənubi Qafqazda sülh və davamlı sabitliyin təmin olunmasına yönəlmiş səyləri darmadağın edir".

Deputat qeyd edib ki, bu, Fransanın müasir neofaşizm simasını nümayiş etdirir.

Makron hökuməti ölkənin xarici siyasətini iflasa aparır. Azərbaycan xüsusi xidmət orqanlarının uğurlu əməliyyatı nəticəsində ölkə ərazisində Fransa səfirliyinin kəşfiyyat şəbəkəsinin aşkarlanması Fransa xarici siyasətinin son 50 ildəki ən böyük iflası və biabırçılığı oldu. Bu, rəsmi Parisin Vyana Konvensiyası da daxil olmaqla beynəlxalq qanunvericiliyin tələblərini pozması deməkdir.

A.Hüseynov vurğulayıb ki, bütün bunlar Fransanın təkcə Cənubi Qafqazda deyil, Afrikada da siyasətinə təsir edəcək. "Ehtimal etmək olar ki, ifşa olunmuş şəbəkə ilə bağlı yeni faktlar üzə çıxacaq və bu faktlar Makron üçün də yeni sürprizlər yaradacaq. Bu, həm də Fransa xarici siyasətinin enişi və fiaskosudur", - deyə o əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 20 aprel, № 79.- S.8.